

*Əli HACI*

## *Sabir Rüstəmxanlıya*

Heç oxşaya bilmadim
Solmuşdu sabah-sabah.
Göz yaşımı şeh bilən
Gülümə bax,ay Allah !
Görən bilir bəxtəvər
Ər içində özgə ər.
İçim məni yandırır
Çölümə bax,ay Allah!
Kimdi mənə daş atan
"daş atıb başın tutan"
"Can" deyib halın tutan
dilimə bax,ay Allah!
Bu sevgidi yada dərd
iki vurdun elər dörd.
Azında dərd,çoxunda
Zülümə bax,ay Allah !
Əynini göyd? bulud
Aq,qara geydi bulud.
Yaqdisa öldü bulud
Ölümə bax,ay Allah !

***

məni öldürələr sənin əlinlə
yenə də müqəssir özüm sayılam.
yatam cəhənnəmdə,cənnət versələr
üzümü sinənə qoyub ayılam !

***

bacarırsan uzağ dur,
bir yer tap,qaç uzağa.
göylərdə bulud dolub,
yerdəsə mən-yağmağa !
sən də dur gəl,İlahi
köhnə filmi qayçıla !
bu qızın alnındakı
bəlkə düyün açıla !
söz qayıdır üstümə
yüngülləşib çəkisi.
üzümə üz tutmuşam
qaradandı ləkəsi !
qaç ağlını çırpginən
ölən mənim üstümə.
hisslərini boğginən
adam boğan tüstümə !
qopar əlində apar
köynəyimin yaxasın.
məni Allaha tapşır,
mənə ögey baxmasın !

***

yollar uzanıb gedər
əlim yetənə qədər.
sözüm at belindədi
dilim yetənə qədər.
at qoynuma özünü,
yurd qayırım özümü.
dərd qayırım özümü
elim yetənə qədər.
çiçək əkdin daşlığa,
su çəkmədin daşlığa !
göz verim sulamağa
selim yetənə qədər .
sözdən uca-söz özü
rəngdi içi,həm üzü !
gərək,hər rəngə dözüm
ölüm yetənə qədər !

***

Üzümdən
dodaqlarının izini
göz yaşım yuyar deyə
Ağlamağı unutdum.
Saçlarına bənzəyən gecələrə
Gözlərimi qapamağdan ,
Sənin uzağlığından
Doyaram deyə
Xatirəni oyatdım !
Hər gün yaxına çəkdim
Son görüşdəki özünü
Hərdən yaxama çəkdim
Getdiyin yolların tozunu !
Daş düşmədi sən gedən günə
Daş olmadı yastığın
Əllarin beşik yırğaladı
Əllarin çörək yağladı
Bunada şükür
Sənin adına
Ayrılığı yaşatdım !

***

Mənim səsim tutulub
Sənin gözün İlahi!
Mənim içim görünmür
Sənin özün llahi !
Nə qəribə oxşarıq
Daşa dönsün bu sevgi !
Gözlarim- səman sənin
Buludarın-su sevgim !
Havan birdi gəl- gedə
İlahi ! Doydunmu heç ?!
Hər ölüm yaranışsa
Yazdığım duadı keç !

***

Ölənlər bir deyilki
Mindi, milyondu hələ.
Qalanlar bir deyilki
Qalır, oyundu hələ .
Dedıyım sağlığa vur
Söz- qalır, qalanı qur.
Havandı ayaqa dur
Kiçik toyundu hələ.
Gəldim, gəlib sən də gor
Ağır gələr gen də gor.
Hamının öldüyü yer-
Böyük toyundu Lələ !

***

Yol gedən,yol gedər yollar salmağa
Yol salan,yurd salan indi Vətənsən.
"Bu Vətən dediyin dünyam siirlidi"
açmağa Tanrının bətnində sənsən !
"Ömür kitabı" ndan cehizlər qalan,
O "Göy Tanrı "sından duasın alan.
Yandığın oxşayıb yuxusun alan,
Yazılan sözlərin ətrində sənsən.
At yürür sevgidən,ay Dədəm oğlu !
İt hürür qorxudan ,ay Dədəm oğlu !
Yolun Bütövlüksə-yürü dalınca
Al,öz qismətini Boz Qurdun OĞLU !

***

Şuşalı bacıma
İlahi! Sevmədin səndə bu qızı
Dünən əkdiyini təzədən əkir !
Sulayır bəxtinin qara günlərin
Ağarmış sözlərə qaralar çəkir !
Yandırıb sevgisin ayrılıqlara
Güzgüsü-sandıqda,odu-küldədi !
Gündəlik geydiyi-payız yarpağı
Verdiyi nəfəsi-od üfürəndi !
Saçları dağılıb yuvası kimi
Yanıb baxışları gündəliyində.
O çörək dilənmir,çörək paylayır
Ərlərin torpağa dönüklüyündən !
Yeri ürəyimə,gözümə yeri
En sinəm üstünə qəm yaylağından !
Bilirəm,Şuşasız isinmir yerin
Gəl,məndə üşüyüm soyuqluğundan !

***

Daşım ağırdı Saday !
Sel götürər , adam yox .
qurddamış bu ahımı
Yel götürər ,adam yox .
Göyün yeddi qatında-
Yerin birinci qatda !
biletsiz sarnişinsan
Yerin yoxdu qatarda .
Yaşa qoşul quru sev
Ömürdü şirin yaşa
Pir olacaq evinçün
Bir ağız şeir yaşa!

***

Üşüyürəm
ürəyində yer elə !
at bayıra hər şeyi
köhnə dərdi,sevgini
məni təzə dərd elə !